## “Azərbaycan Respublikası Prezidentinin seçkilərində kütləvi informasiya vasitələri ilə seçkiqabağı təşviqatın aparılması qaydaları haqqında Təlimat”a dəyişikliklər edilməsinə dair Mərkəzi Seçki Komissiyasının

## QƏRARI

Azərbaycan Respublikası qanunvericiliyinin vaxtaşırı təkmilləşdirilməsindən və seçki (referendum) münasibətlərinin daha mükəmməl nizama salınması zərurətindən irəli gələn Azərbaycan Respublikası Seçki Məcəlləsinin tətbiqi və seçkilərin (referendumun) hazırlanıb keçirilməsi ilə əlaqədar Mərkəzi Seçki Komissiyası tərəfindən qəbul edilmiş bir sıra hüquqi aktların təkmilləşdirilməsinə ehtiyac yaranmışdır.

Ona görə də, qüvvədə olan Mərkəzi Seçki Komissiyasının Komissiyasının 18 iyul 2008-ci il tarixli 7/27-8 saylı Qərarı ilə təsdiq edilmiş “Azərbaycan Respublikası Prezidentinin seçkilərində kütləvi informasiya vasitələri ilə seçkiqabağı təşviqatın aparılması qaydaları haqqında Təlimat”ın struktur elementləri qismən “Normativ hüquqi aktlar haqqında” Azərbaycan Respublikasının 21 dekabr 2010-cu il tarixli Konstitusiya Qanununun 30-cu maddəsinə uyğunlaşdırılmalı, ona “Azərbaycan Respublikasının Seçki Məcəlləsində dəyişikliklər edilməsi haqqında” Azərbaycan Respublikasının 18 iyun 2010-cu il tarixli Qanununa uyğun olaraq müvafiq dəyişikliklər edilməklə təkmilləşdirilməlidir.

Mərkəzi Seçki Komissiyası öz səlahiyyətləri daxilində həmin dəyişikliklərin rəsmi dərc edilməsi və qüvvəyə minməsi ilə bağlı qanunvericilikdə nəzərdə tutulmuş tədbirlərin görülməsini təmin etməlidir.

Mərkəzi Seçki Komissiyası yuxarıda qeyd edilənləri əsas götürərək, “Normativ hüquqi aktlar haqqında” Azərbaycan Respublikasının Konstitusiya Qanununun 75.2-ci, 78.2-ci və 78.3-cü, Azərbaycan Respublikası Seçki Məcəlləsinin 19.4-cü, 19.14-cü, 28.2-ci və 28.4-cü maddələrinə uyğun olaraq **qərara alır:**

1. Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının 18 iyul 2008-ci il tarixli 7/27-8 saylı Qərarı ilə təsdiq edilmiş “Azərbaycan Respublikası Prezidentinin seçkilərində kütləvi informasiya vasitələri ilə seçkiqabağı təşviqatın aparılması qaydaları haqqında Təlimat”a aşağıdakı dəyişikliklər edilsin:

1.1. “1. Ümumi müddəalar” hissəsi preambula hesab edilsin.

1.2. 1.2-ci bənd 1-ci hissə hesab edilərək müvafiq qaydada nömrələnsin.

1.3. 1.1-ci və 1.2-ci bəndlərə “verməyə” sözlərindən sonra “(verməməyə)”, 1.3-cü bəndə “reklam” sözündən sonra “teleradio verlişləri” sözləri əlavə edilsin.

1.4. 2.1-ci bənddə “28” rəqəmi “23” rəqəmi ilə və “səsvermə gününə” sözləri “səsvermənin (seçki gününün) başlamasına” sözləri ilə əvəz edilsin.

1.5. 2.4-cü bəndə “nəşrlər” sözündən sonraya “aşağıdakılardır:” sözü, 2.4.1-ci yarımbəndə “yayımlanan” sözündən sonraya “həftədə azı bir dəfə çıxan” sözləri əlavə edilsin.

1.6. 3.2-ci bəndin 2-ci cümləsindən “səsvermədə iştirak etmiş və seçicilərin etibarlı hesab edilən səslərinin 3 faizindən az səs toplamış” sözləri, 3.3.5-ci yarımbəndin 2-ci cümləsindən “habelə dövri nəşrlərdə dərc üçün ayrılmış yerin” sözləri çıxarılsın.

1.7. 4.2-ci bənddə “35” rəqəmi “30” rəqəmi ilə əvəz edilsin.

1.8. 5.1.6-cı yarım bəndə “dövlətlərin” sözündən sonraya “xarici hüquqi şəxslərin” sözləri əlavə edilsin.

2. Mərkəzi Seçki Komissiyası öz səlahiyyətləri daxilində bu Qərarın rəsmi dərc edilməsi və qüvvəyə minməsi ilə bağlı qanunvericilikdə nəzərdə tutulmuş tədbirlərin görülməsini təmin etsin.

Sədr Məzahir Pənahov

Katib Arifə Muxtarova

Katib Mikayıl Rəhimov